# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı

# İLLİK MƏRUZƏ

(2025-ci il üzrə)

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı

# İLLİK MƏRUZƏ

## (2025-ci il üzrə)

Bakı - 2026

*Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Azərbaycan Respublikasının Milli Məclisinə illik məruzəsi (2025-ci il üzrə) "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən hazırlanmışdır.*

*Fotomateriallar, statistik göstəricilər və diaqramlarla müşayiət olunan Məruzədə 2025-ci il ərzində yerli özünüidarəetmə sahəsində görülmüş işlər qeyd olunur, mövcud problemlər təhlil edilir və onların həlli üçün tədbirlər, o cümlədən maarifləndirmə işi barədə məlumat verilir.*

## Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2025-ci il üzrə)

Ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə tarixi inkişafının yeni mərhələsinə qədəm qoymuş ölkəmizin hərtərəfli inkişafına, sosial-iqtisadi tərəqqisinə yönəlmiş islahatlar 2025-ci ildə də uğurla həyata keçirilmişdir.

Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünün tamam olması nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ölkənin suveren hüquqlarının reallığa çevrilməsində və müstəqil dövlət quruculuğu missiyasının həyata keçirilməsində qazanılan uğurların bariz göstəricisi olmuşdur.

Bu gün Azərbaycan - regionun aparıcı dövləti kimi mövqeyini, hərbi qüdrətini və beynəlxalq nüfuzunu daha da artırmaqdadır. 2025-ci ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki dövlət arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və Cənubi Qafqazda daimi sülh, sabitlik və davamlı inkişafın yolunu açmışdır.



***Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamənin imzalanması, 08.08.2025-ci il***

Həmçinin Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq əhalinin doğma torpaqlarına qayıdışı mühüm dövlət prioriteti kimi diqqət mərkəzində olmuşdur. Soydaşlarımızın öz dədə-baba yurdlarında dayanıqlı məskunlaşmasına və iqtisadi aktivliyinin təmin olunmasına xidmət edən dəstək tədbirləri, eləcə də əhalinin layiqli həyat

səviyyəsinin, təhlükəsizliyinin təmin olunması üçün görülən işlər dövlətimizin gücünün və möhkəm iqtisadi potensialının əyani təzahürü olmaqla bütün dünyada heyranlıqla izlənir.

Qarabağ və Şərqi Zəngəzurda hava limanları, nəqliyyat-tranzit yolları, tunellərin tikintisi, müasir şəhər və kəndlərin salınması bölgənin sosial-iqtisadi dirçəlişini, innovativ və dayanıqlı inkişaf mərkəzinə çevrilməsini təmin etməkdədir.



***Xankəndi şəhərində Zəfər parkının açılışı, 24.12.2025-ci il***

2025-ci il ədliyyə orqanları üçün də uğurlu olmuş, hüquq sisteminin modernləşdirilməsi, son illər ərzində ədliyyə sahəsində həyata keçirilən institusional və rəqəmsal islahatlar, habelə süni intellekt həllərinin tətbiqi bu orqanların fəaliyyətində yeni dinamikanı müəyyənləşdirmiş və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsində, idarəetmənin təkmilləşdirilməsində mühüm rol oynamışdır.

Demokratiyanın, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas amillərindən biri olan yerli özünüidarəetmə orqanlarının - bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi, ölkənin sosial, iqtisadi, siyasi və mədəni inkişafında iştirakının genişləndirilməsi dövlətimizin qarşısında duran mühüm məqsədlərdən biridir.

2025-ci ildə ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da müsbət nəticələr əldə edilmişdir. Məlum olduğu kimi, yerli özünüidarəetmə sahəsində islahatların yeni mərhələsinə start verilmiş və “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” 18 oktyabr 2024-cü il tarixli 50-VIIQ nömrəli Qanuna əsasən ölkə üzrə bələdiyyələrin sayı 1606-dan 685-dək azaldılmışdır.

Həmin Qanunun icrasını təmin etmək üçün “Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və digər məsələlərin həlli məqsədilə komissiyaların yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 13 yanvar tarixli 13s nömrəli Sərəncamı əsasında komissiyalar yaradılmış və onların yerlərdəki fərdi tərkibinin

təsdiqi, komissiyalara sədrlik edilməsi və kargüzarlıq işinin təşkili Ədliyyə Nazirliyinə həvalə olunmuşdur.

Aidiyyəti qurumların Nazirliyə təqdim etdikləri nümayəndələri barədə təkliflər nəzərə alınmaqla 3 fevral 2025-ci il tarixli 03-T saylı əmrlə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, müvafiq yerli icra hakimiyyəti orqanının və birləşən bələdiyyələrin nümayəndələrindən ibarət komissiyaların yerlərdəki tərkibi təsdiq edilmişdir.

Eyni zamanda əmrdə komissiyalara hüquqi və metodoloji yardım göstərilməsi, onlar tərəfindən tərtib ediləcək sənədlərdə əks etdirilən məlumatların dürüstlüyünün, birləşmə prosesində şəffaflığın və obyektivliyin təmin edilməsi kimi məsələlərlə bağlı zəruri tapşırıqlar öz əksini tapmışdır.

Birləşmə prosesinin vahid qaydada və səmərəli həyata keçirilməsinin təmini məqsədilə Nazirlik tərəfindən komissiya sədrləri üçün müvafiq iclaslar keçirilmiş və müxtəlif vaxtlarda yerində metodoloji köməklik göstərilmişdir. Həmçinin birləşən bələdiyyələrin əmlaklarının ayrı-ayrılıqda siyahıya alınaraq hüquq varisliyi qaydasında akt əsasında yeni yaradılan bələdiyyələrə təhvil verilməsi, komissiya üzvlərinin fəaliyyətinin əlaqələndirilməsi və kargüzarlıq işinin düzgün təşkil edilməsi kimi məsələlərlə bağlı komissiyalara zəruri tövsiyələr verilmişdir.



***Hüquqi və metodoloji yardım çərçivəsində iclaslar***

Görülən işlər nəticəsində birləşmə prosesi yekunlaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq məlumat təqdim olunmuşdur.

Xüsusi qeyd olunmalıdır ki, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunmasından sonra ilk dəfə 2025-ci ilin yanvar ayında növbəti bələdiyyə seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdən biri olmuşdur. Bununla əlaqədar media subyektlərində, o cümlədən Nazirliyin internet səhifələrinin, "Bələdiyyələrlə iş" informasiya sisteminin imkanlarından istifadə etməklə hüquqi maarifləndirmə işləri aparılmış, Nazirliyin Penitensiar Xidmətində keçirilən seminar-müşavirədə penitensiar müəssisələrdə seçkilərin təşkili və səsvermənin keçirilməsi ilə bağlı məsələlər müzakirə edilmiş, bu istiqamətdə zəruri tapşırıqlar verilmiş və onların icrası təmin olunmuşdur.




Ötən seçkilərdə olduğu kimi, yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində də şəffaflığın, demokratik prinsiplərin təmin olunması, insanların seçki hüquqlarını sərbəst şəkildə reallaşdırmaları üçün dövlətimiz tərəfindən bütün zəruri tədbirlər görülmüşdür.

Seçkilər nəticəsində 682 bələdiyyə (*3 bələdiyyə üzrə seçki nəticələri etibarsız hesab edilmişdir*) üzrə 8039 bələdiyyə üzvü seçilmişdir. Əvvəlki seçkilərdə olduğu kimi, yeni seçilən bələdiyyə üzvlərinin böyük hissəsini qadınlar və gənclər təşkil etmişdir. Belə ki, qadınların sayı 3148 nəfər (39%), gənclərin sayı isə 2007 nəfər (25%) olmuşdur.

Seçkilər nəticəsində bələdiyyə üzvlərinin tərkibinin xeyli hissəsinin yeniləndiyi nəzərə alınaraq Ədliyyə Nazirliyi tərəfindən operativ şəkildə hüquqi maarifləndirmə işinin təşkili üçün zəruri tədbirlər görülmüşdür.

Nazirlik tərəfindən mütəmadi olaraq yerli özünüidarəetmə sahəsində qanunçuluğun təmini məqsədilə bələdiyyə fəaliyyətində rast gəlinən qanun pozuntuları, o cümlədən onları yaradan səbəb və şəraitin müəyyən edilməsi istiqamətində təhlillər edilir, ümumiləşdirmələr aparılır və nəticələrinə uyğun olaraq bələdiyyələrlə metodoloji iş təşkil olunur, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi üçün müvafiq qanun layihələri hazırlanır.

Bu çərçivədə ölkəmizdə effektiv yerli özünüidarəetmənin təmini, idarəetmə sisteminin optimallaşdırılması, bələdiyyələrin maliyyə dayanıqlılığının artırılması üçün müvafiq normativ hüquqi aktların qəbulu, təkmilləşdirilməsi və ümumilikdə bələdiyyələrin fəaliyyətinin dövlət başçısının 2 fevral 2021-ci il tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun qurulmasının təmin edilməsi yönündə tədbirlər davam etdirilmişdir.

Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 iyun tarixli 173 nömrəli Qərarı ilə "Bələdiyyələrlə iş" informasiya sistemi (BİİS) haqqında Əsasnamə" təsdiq edilmişdir. Hazırda sistem informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Azərbaycanda yerli özünüidarəetmə orqanlarının fəaliyyətində operativliyin, səmərəliliyin, şəffaflığın, eləcə də saxlanılan məlumatların sistemliliyinin və əlçatanlığının təmində mühüm rol oynayır.



**"Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 dekabr tarixli 238 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

**1. "Bələdiyyələrlə iş" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).**

**2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "Bələdiyyələrlə iş" informasiya sisteminin fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün.**

**3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə "Bələdiyyələrlə iş" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin.**

**4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.**

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

**Bakı şəhəri, 3 iyun 2025-ci il**
**№ 173**

Həmçinin dövlət başçısının 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planının 2.16-cı bəndində nəzərdə tutulmuş “Bələdiyyə gəlir və xərclərinin vahid portalı”nın yaradılması və bütün bələdiyyə xərclərinin portal vasitəsilə həyata keçirilməsi, portalın açıqlığının təmin olunması barədə tapşırıqdan irəli gələrək Əsasnaməyə əsasən qeyd edilən portal BİİS-in strukturuna altsistem kimi daxil edilmişdir. Portalın altsisteminə daxil olan modullar vasitəsilə bələdiyyələrin gəlir mənbələri və xərc istiqamətləri barədə məlumatların toplanılması, emalı, axtarışı, təhlili, ötürülməsi və yayımlanması, bütün bələdiyyə xərclərinin həyata keçirilməsi və bələdiyyələrin maliyyə hesabatlarının elektron formada tərtib edilməsi təmin olunacaqdır. Hazırda portalın hazırlanması və açıqlığının təmin olunması üzrə işlər davam etdirilməkdədir.

Bundan başqa yerli büdcələrin gəlirlərinin və xərclərinin uçotunun çevik və effektiv təşkili, vahid və aktual informasiya bazasının yaradılması məqsədilə 2025-ci ilin iyun ayında “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Bələdiyyələrin statusu haqqında”, “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında” Qanun, eləcə də həmin Qanunun tətbiqi və “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 11 iyul 2025-ci il tarixli 440 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir.

Qanunun qəbulu ilə “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq müddəa daxil edilərək bələdiyyələrin vahid informasiya sisteminə dövlət informasiya sistemi statusu verilmiş, Fərmanla Sistemin “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görülməsi tapşırılmışdır.

Fərmandan irəli gələrək Sistemə ötürüləcək və Sistemdən əldə ediləcək məlumatların dairəsinə dair təkliflər Bələdiyyələrin Milli Assosiasiyaları tərəfindən Nazirlər Kabinetinə təqdim olunmuşdur.




Ədliyyə fəaliyyətinin müasir dövrün tələblərinə və yeni çağırışlara uyğun təkmilləşdirilməsi işləri çərçivəsində yenidən işlənərək hazırlanmış “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında Təlimat” Ədliyyə Nazirliyinin Kollegiyasının 30 iyun 2025-ci tarixli 6-N nömrəli Qərarı ilə, bununla yanaşı müvafiq əmrlə Nazirliyin Bələdiyyələrlə iş baş idarəsinin yeni əsasnaməsi təsdiq edilmişdir.

İl ərzində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 81711 (*o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 1935)* bələdiyyə aktı hüquqi ekspertizadan keçirilmiş, nəticədə 79448 *(97,2%)* aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilmişdir. Normativ hüquqi aktların tələblərinə zidd olan

1645 *(2%)* aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilmiş, 618 akt (0,8%) isə növbəti ilə qalıq keçmişdir.

Verilmiş təkliflər əsasında bələdiyyələr tərəfindən 644 *(0,79%)* akt ləğv edilmiş, 950 *(1,16%)* akt dəyişdirilmiş, 44 *(0,05%)* təklif isə növbəti ilə qalıq keçmişdir. Bələdiyyələr tərəfindən təmin olunmayan 7 *(0,008%)* təklif üzrə məhkəmələrdə iddia qaldırılmışdır.




Bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 4132 müraciətdən 3618-nə *(87%)* baxılmış, 204-ü *(5%)* aidiyyəti üzrə göndərilmiş, 310 *(8%)* müraciət isə növbəti ilə qalıq keçmişdir. Müraciətlər üzrə inzibati nəzarət icraatı nəticəsində aşkar edilərək dəyişdirilməsi və ləğv edilməsi ilə bağlı aidiyyəti bələdiyyələrə verilmiş təkliflər əsasında qanunvericiliyin tələblərinə zidd 53 bələdiyyə aktının hamısı ləğv edilmişdir.




Ümumilikdə həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı təklif verilmiş 1698 aktdan 697-si *(41%)* ləğv edilmiş, 950-si *(56%)* dəyişdirilmiş, 7 *(0,4%)* təklif üzrə məhkəmələrdə iddia qaldırılmış, 44 *(2,6%)* təklif isə növbəti ilə qalıq keçmişdir.

Xüsusi qeyd olunur ki, birləşmə nəticəsində ölkə üzrə bələdiyyələrin sayı 57% azalsa da, 2024-2025-ci illər üzrə məlumatların müqayisəli təhlilindən görünür ki, bir sıra göstəricilər buna mütənasib şəkildə azalmamış, əksinə müəyyən sahələrdə artım müşahidə olunmuşdur. Belə ki, Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi, onların fəaliyyətinin təşkilinə kömək və metodoloji yardım tədbirlərinin effektivliyinin yüksəldilməsi nəticəsində cari ildə fəaliyyəti yoxlanılmış bələdiyyələrin sayında 33%, aidiyyəti hüquq mühafizə orqanlarına göndərilmiş materialların sayında 22%, məhkəməyə göndərilmiş inzibati xəta haqqında protokolların təmini nisbətində 11% artıma nail olunmuşdur.




Bununla yanaşı, əvvəlki illə müqayisədə bələdiyyələr tərəfindən qəbul edilən aktların sayında cəmi 20%, həyata

keçirilən maarifçilik tədbirlərinin sayında 7% və həmin tədbirlərə cəlb olunmuş iştirakçıların sayında cəmi 18% azalma olmuşdur. Eyni zamanda dəyişdirilməsi və ya ləğv edilməsi barədə təklif verilmiş aktların sayındakı 36%-lik və “Bələdiyyələrlə iş” informasiya sistemi vasitəsilə aktların elektron qaydada təqdim edilməsi imkanının yaradılması sayəsində məhkəməyə göndərilmiş inzibati xəta haqqında protokolların sayındakı 51%-lik enmə həyata keçirilən tədbirlərin məntiqi nəticəsi olaraq cari ildə bələdiyyələrin fəaliyyətində keyfiyyət baxımından müsbət dəyişikliklərin mövcudluğunu bir daha təsdiq edir.

Ədliyyə orqanlarının fəaliyyətində əsas hədəflərdən biri vətəndaşların məmnunluğunun artırılması və onlara layiqli xidmət göstərilməsidir. Dövlət başçısının vətəndaş müraciətlərinə obyektiv şəkildə baxılması, vətəndaş-məmur münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması barədə tapşırıq və tövsiyələrinə uyğun olaraq müraciətlərə operativ, həssas və məsuliyyətli yanaşmanın təmin edilməsi daim diqqətdə saxlanılmışdır.

İl ərzində bələdiyyə fəaliyyəti ilə bağlı baxılmış müraciətlərin 313-ü təmin və ya qismən təmin edilmiş, şəhid ailə üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusilə nəzarətdə saxlanılmış və belə müraciətlərdən 65-i təmin olunmuşdur. Müraciətlərin həlli istiqamətində göstərilən diqqətə və qayğıya görə 27 vətəndaşın (o cümlədən 6 şəhid ailə üzvü, müharibə əlili və iştirakçısı) təşəkkür ifadə edən məktubları daxil olmuşdur.

2025-ci il ərzində yerli büdcə vəsaitlərinin səmərəli istifadə olunması, bələdiyyə əmlakının *(o cümlədən torpaqların)* idarə edilməsi sahəsində qanunçuluğun və şəffaflığın təmin edilməsi, korrupsiyaya, habelə ümumilikdə hüquqpozmalara şərait yaradan halların qarşısının alınması üzrə inzibati nəzarət qaydasında tədbirlər görülmüşdür.

Belə ki, aparılmış müxtəlif dövrləri əhatə edən araşdırmalar zamanı cinayət əlamətləri aşkar edilərək toplanmış sənədlər 62 halda hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir. Həmin materiallardan 14-ü üzrə cinayət işi başlanılmış, 17-si üzrə qanun pozuntularının aradan qaldırılması barədə təqdimatlar verilmiş, 31-i üzrə isə araşdırma yekunlaşmamışdır. O cümlədən:

- Abşeron rayonu Fatmayı bələdiyyəsinin fəaliyyəti araşdırılmış və bələdiyyənin vəzifəli şəxsi tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə nəticəsində bələdiyyənin və cəmiyyətin hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurulması faktı üzrə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308.1-ci və 308.2-ci (*vəzifə səlahiyyətlərindən sui-istifadə*) maddələri ilə cinayət işi başlanmışdır;
- Qusar rayonu Quxuroba bələdiyyəsinin mülkiyyətinə aid torpaq sahəsinin ayrılması ilə bağlı qanunsuz sənəd tərtib olunması və bilə-bilə saxta sənədlərdən istifadə edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 320.1-ci və 320.2-ci (*rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə*) maddələri ilə cinayət işi başlanmışdır;
- Saatlı rayonu Sarıcalı bələdiyyəsinin sədri tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə dələduzluq etməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.2.3-cü (*dələduzluq*) maddəsi ilə cinayət işi başlanmışdır;
- Biləsuvar rayonu keçmiş Aşağı Cürəli-Muğan bələdiyyəsinin vəzifəli şəxsləri tərəfindən

kollegiallıq prinsiplərinə əməl edilmədən bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin ayrılması barədə qərarlar tərtib edilməsi, yerli büdcə vəsaitlərinin mənimsənilməsi və bələdiyyə əmlaklarının israf edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü (*mənimsəmə və ya israf etmə*), 308.1-ci (*vəzifə səlahiyyətlərindən sui-istifadə)* və 313-cü (*vəzifə saxtakarlığı)* maddələri ilə cinayət işi başlanmışdır;

- Xaçmaz rayonu Mürşüdoba bələdiyyəsinin vəzifəli şəxsi tərəfindən yerli büdcə vəsaitlərinin mənimsənilməsi və bələdiyyənin mülkiyyətinə aid torpaq sahəsinin ayrılması ilə bağlı qanunsuz sənəd tərtib olunması faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.2.2-ci, 178.2.3-cü (*dələduzluq)* və 320.1-ci (*rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə)* maddələri ilə cinayət işi başlanmışdır;
- Tovuz rayonu Böyük Qışlaq bələdiyyəsinin vəzifəli şəxsləri tərəfindən kollegiallıq prinsiplərinə əməl edilmədən bələdiyyənin adından saxta qərarlar tərtib edilməsi faktı üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 308.2-ci (*vəzifə səlahiyyətlərindən sui-istifadə)*, 311.3.2-ci *(rüşvət alma (passiv rüşvətxorluq)* və 313-cü (*vəzifə saxtakarlığı)* maddələri ilə cinayət işi başlanmışdır və s.

Həmçinin Tərtər rayonu Sarov, Qaradağlı, Yuxarı Qapanlı, Bəyimsarov, Abşeron rayonu Qobu, Qusar rayonu Urva, Samur, Gədəbəy rayonu keçmiş Novosaratovka və s. bələdiyyələrinin vəzifəli şəxsləri barəsində toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilmişdir.

Bununla yanaşı bələdiyyə fəaliyyəti ilə bağlı Ədliyyə Nazirliyinə daxil olmuş hüquqi və fiziki şəxslərin sorğu və müraciətlərinə baxılarkən aşkar olunmuş qanun pozuntuları ilə bağlı müvafiq sənədlər əlavə edilməklə aidiyyəti üzrə istintaq orqanlarına məlumat verilmişdir.

Aparılan təhlillər göstərir ki, bələdiyyələrin fəaliyyətində rast gəlinən pozuntular əsas etibarilə bələdiyyə torpaqlarının idarə edilməsi, maliyyə vəsaitlərindən istifadə, şəffaflıq və hesabatlılığın təmini, bələdiyyə idarəçiliyi və digər məsələləri əhatə edir.

Təhlillərin nəticələrinə əsasən yerli özünüidarəetmə fəaliyyətində yol verilən aşağıdakı səciyyəvi nöqsanları göstərmək olar:

- Bələdiyyənin adından başqalarına hüquq verən saxta sənədlərin hazırlanması;
- Bələdiyyə mülkiyyətinə aid torpaq sahələrinin saxta sənədlər əsasında satılması;
- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə əmlakı barəsində təkbaşına qərar verilməsi;
- Bələdiyyənin vəzifəli şəxsləri tərəfindən bələdiyyə torpaqlarının istifadəsi və mühafizəsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməməsi;
- Bələdiyyə əmlakının mənimsənilməsi və ya israf edilməsi;
- Bələdiyyə mülkiyyətində olan torpaq sahələri fərdi yaşayış evinin tikintisi üçün bilavasitə satıldıqda qiymətinin, habelə hərraca və ya müsabiqəyə çıxarılan torpaqların ilkin qiymətinin bazar qiyməti nəzərə alınmadan real dəyərindən daha aşağı müəyyən edilməsi;

- Bələdiyyənin vəzifəli şəxslərinin səhlənkarlığı nəticəsində yerli vergi və ödənişlərin, o cümlədən icarə haqlarının toplanması işi aşağı səviyyədə təşkil edilməklə bələdiyyənin maliyyə vəziyyətinin əsaslı şəkildə pisləşməsi.

Bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaş şikayətlərinin əsas səbəbləri araşdırılmış və təhlil nəticəsində məlum olmuşdur ki:

- Bakı şəhəri üzrə bələdiyyələr tərəfindən əsasən ötən dövrlərdə qanunsuz torpaq sahələrinin ayrılması, vergitutma obyektlərinin uçotu və yerli vergilərin hesablanmasında qanunvericiliyin tələblərinin pozulması, yerli əhəmiyyətli məsələlərin həlli, o cümlədən abadlaşdırma və yaşıllıqların mühafizəsi ilə bağlı vəzifələrinin lazımi səviyyədə yerinə yetirilməməsi hallarına rast gəlinir;

- Region bələdiyyələri tərəfindən əsasən torpaq sahəsinin ayrılması ilə bağlı qanunvericiliyin tələblərinə əməl edilməməsi, bələdiyyə torpaqlarının zəbt edilməsi, yaxud təyinatından kənar istifadə edilməsi, qeyri-qanuni istifadə olunan, habelə icarə müddəti bitmiş torpaqların bələdiyyənin sahibliyinə qaytarılması və dəymiş ziyanın ödənilməsi istiqamətində hər hansı tədbir görülməməsi kimi nöqsanlara yol verilir.

Bu şikayətlərin əsas səbəbi əhalinin bələdiyyə torpaqlarının ayrılması ilə bağlı qanunvericiliyin tələblərini bilməməsi, bələdiyyələrdə mülkiyyətlərinə aid torpaqlar barədə ətraflı məlumatın olmaması, torpaqayırma prosedurlarının uzun müddət tələb etməsi, bələdiyyə torpaqları üzərində nəzarətin, o cümlədən torpaqların mühafizəsinin düzgün təşkil edilməməsi, bəzən isə bələdiyyələrin vəzifəli şəxslərinin bələdiyyə torpaqlarından qanunsuz istifadəyə şərait yaratmasıdır.

İnzibati nəzarət zamanı müəyyən edilmiş hüquq pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri *(bələdiyyə aktlarının qəbulu, yerli büdcə layihəsinin müzakirəsi və təsdiqi, büdcə vəsaitlərindən istifadə, yerli vergilərin hesablanması, bələdiyyə torpaqlarının idarə olunması, şəffaflığın təmini, bələdiyyələrin daimi komissiyalarının aktiv fəaliyyətinin təmin olunması, icra aparatının düzgün təşkili, icra sənədinin icraya yönəldilməsinin xüsusiyyətlərinə riayət olunması və s.*) əhatə edən tövsiyələr hazırlanaraq göndərilmişdir.

İl ərzində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 549-cu *(bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın fəaliyyətinə mane olma)* maddəsi ilə bələdiyyənin vəzifəli şəxsləri barəsində inzibati xəta haqqında protokollar tərtib edilərək məhkəmələrə göndərilmiş, həmin protokollar əsasında 43 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilmiş, 3 protokol isə hazırda məhkəmələrin icraatındadır.

2025-ci ildən etibarən inzibati nəzarət qaydasında baxılması üçün ölkə bələdiyyələri üzrə bütün aktlar qanunvericiliyin tələbinə uyğun olaraq “Bələdiyyələrlə iş” informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilmişdir. O cümlədən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün bələdiyyələrin də aktlarının informasiya sisteminə yerləşdirilməsi təmin olunmuşdur. Bununla da bələdiyyə aktlarının vaxtında təqdim edilməməsi halları, habelə bununla bağlı bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalmışdır.

Məlumdur ki, bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək tədbirləri çərçivəsində yerli büdcənin əsas formalaşma mənbələrindən olan yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi sahəsində problemlərin aradan qaldırılması üçün davamlı tədbirlər *(vergitutma obyektlərinin uçotunun dəqiqləşdirilməsi, uçotdan kənarda qalan obyektlərin uçota*

*götürülərək vergiyə cəlb edilməsi, vergilərin qanunauyğun hesablanaraq yığılması, vergi borcları üzrə inzibati akt qəbul edilərək məcburi icraya yönəldilməsi, əvvəlki illərdə icarəyə verilmiş bələdiyyə torpaqlarının icarə haqlarının mövcud bazar qiymətlərinə uyğunlaşdırılması)* görülmüş və müsbət nəticələr əldə edilmişdir.




Belə ki, 2025-ci ilin aprel ayında dərc olunan Dövlət Statistika Komitəsinin 2024-cü il üzrə bələdiyyə büdcəsinin icrası barədə məlumatına əsasən ölkə üzrə bələdiyyələrin büdcə gəlirləri əvvəlki illə müqayisədə təxminən 7.9 milyon manat artaraq (14,4%) ilk dəfə 63 milyon manata yaxın vəsait təşkil etmişdir. Bələdiyyələrin vahid informasiya sistemindən əldə olunan məlumatlara əsasən 2025-ci ilin yekunları üzrə bu göstəricinin 60 milyon manat həddini keçməsi proqnozlaşdırılır. (*Dəqiq məlumatlar Dövlət Statistika Komitəsi tərəfindən 2026-cı ilin birinci rübündə açıqlanacaq*).

Həmin məlumatlardan görünür ki, 2025-ci ildə əksər bələdiyyələrin büdcə daxilolmalarında müsbət nəticələrə nail olunmuş və 2024-cü illə müqayisədə yerli büdcələrə torpaq və əmlak vergisindən təxminən 26% *(7,2 milyon manat)* çox vəsait daxil olmuşdur.

Statistik rəqəmlər baxımından ümumi gəlirlərində kəskin artım Turan, Daş Salahlı, Samux, Yardımlı, Müşfiqabad bələdiyyələrində müşahidə olunmuşdur. Daxilolmalardakı artımın məbləğinin yüksəkliyi baxımından isə Sumqayıt *(841 min manatdan çox)*, Yasamal *(574 min manatdan çox)*, Nərimanov *(533 min manatdan çox)*, Nəsimi *(481 min manatdan çox)* və Masallı *(423 min manatdan çox)* bələdiyyələrini fərqləndirmək mümkündür.

Yerli özünüidarəetmə orqanlarının dayanıqlı gəlir mənbələrinin formalaşdırılması, əhalinin məşğulluğunun təmin olunmasında bələdiyyələrin iştirakının genişləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi tərəfindən aparılan metodiki işlər davam etdirilmişdir. Bu sahədə bələdiyyələrlə aparılan ardıcıl iş nəticəsində 2025-ci ildə 4 yeni bələdiyyə müəssisəsi *(Gədəbəy bələdiyyəsi - "Yaşıl Gədəbəy", Xol Qarabucaq bələdiyyəsi - "Zəfər-Agro-2025", Oğuz bələdiyyəsi - "Oğuz-2025", İsmayıllı bələdiyyəsi - "İsmayıllı Aqrar və Təmir-Tikinti Xidmət İdarəsi")* yaradılmışdır ki, onların əsas fəaliyyət istiqamətlərini kənd təsərrüfatı məhsullarının istehsalı və satışı, təmir-tikinti işlərinin aparılması və s. məsələlər əhatə edir. Ötən illərdə yaradılan müəssisələrin fəaliyyətinin canlandırılması və irəlidəki dövrdə yenilərinin yaradılması istiqamətində işin aparılması qarşıda duran prioritet istiqamətlərdəndir.

Torpaqlardan qanunvericiliyin tələblərinə uyğun, səmərəli istifadəyə nəzarətin gücləndirilməsi üçün torpaq sahələrinin, xüsusilə də kənd təsərrüfatı torpaqlarının məqsədli təyinatı üzrə istifadə edilməsi, torpaq sahələrinin zəbt edilməsi və qanunsuz istifadə edilməsi kimi halların qarşısının alınması istiqamətində aidiyyəti qurumlar, o cümlədən yerli özünüidarə orqanları tərəfindən davamlı iş aparılır.

Bununla əlaqədar bələdiyyələrə dövlət mülkiyyətində olan torpaqların idarə olunmasına, onların istifadəsinə və mühafizəsinə nəzarətin təşkilinə dair qanunvericiliyin tələbləri, o cümlədən bələdiyyələrin müvafiq torpaq münasibətlərindən irəli gələn vəzifələri və qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətini izah edən "Dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri ilə bağlı qanunvericiliyin tələbləri" barədə tövsiyə göndərilmişdir.




İnzibati nəzarət tədbirləri çərçivəsində ümumilikdə 3142 ha torpaq sahəsinin qanunsuz ayrılmasına dair bələdiyyə aktlarının ləğv edilməsi məqsədilə Nazirlik tərəfindən bələdiyyələrə təklif və ya məhkəmələrə iddialar verilmişdir. Nəticədə 3121 ha torpaq sahəsinin icarəyə, 21 ha torpaq sahəsinin isə mülkiyyətə verilməsi haqqında qanunsuz qərarlar ləğv edilmişdir.




2025-ci il ərzində örüş sahələrinin qanunsuz olaraq ayrı-ayrı şəxslərə ayrılması, zəbt olunması və digər pozuntulara qarşı qanunamüvafiq tədbirlər davam etdirilmiş, nəticədə 2057 ha örüş sahəsi ilə bağlı qanunsuz bələdiyyə aktları inzibati nəzarət orqanının təklifləri və ya məhkəmələrə verilmiş iddialar əsasında ləğv olunmuş və ya dəyişdirilmişdir.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bələdiyyələr tərəfindən pul tələbinə dair inzibati aktların qəbulu və məcburi icraya yönəldilməsi üzrə onlarla metodoloji iş davam etdirilmişdir.

Azərbaycan Respublikasının 16 may 2025-ci il tarixli 196-VIIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İcra haqqında" Qanununda edilmiş müvafiq dəyişikliklərə uyğun olaraq bələdiyyələr icra sənədlərini "Elektron icra" informasiya sistemi ilə icraya yönəldə bilərlər. Bu məqsədlə bələdiyyələrə elektron kabinet yaradılması üçün Nazirlik tərəfindən operativ tədbirlər görülmüşdür. Belə ki, Nazirliyin İcra xidməti ilə qarşılıqlı iş aparılmaqla Baş idarə tərəfindən "Bələdiyyələrin pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədlərinin icraya yönəldilməsinin xüsusiyyətləri barədə" tövsiyə hazırlanaraq bələdiyyələrə göndərilmişdir.

Aparılan iş nəticəsində bələdiyyələr üçün "Elektron icra" informasiya sistemində elektron kabinetlər yaradılaraq onlar tərəfindən icra sənədlərinin həmin kabinet vasitəsilə operativ şəkildə icraya yönəldilməsi, icra prosesinin izlənilməsi, həmçinin icraat materialları ilə real vaxt rejimində tanış olmaq imkanı təmin olunmuşdur.

Qeyd olunur ki, 2025-ci il ərzində debitor borcların ödənilməsi ilə bağlı bələdiyyələr tərəfindən qəbul edilmiş 9696 inzibati akt icra məmurları tərəfindən icraata qəbul olunmuş və icraatda qalıqla birgə 17053 inzibati akt olmuşdur. İl ərzində onlardan 11360-nın, başqa sözlə 66,6%-nin icraatı tamamlanmış, yaxud icrası qismən təmin edilmiş, 2025-ci ilin sonuna qalıq qalan 5693 iş nəzarətdə saxlanılmaqla icrası istiqamətində zəruri tədbirlər görülməkdədir.

Hər il olduğu kimi 2025-ci ildə də bələdiyyələrə dövlət büdcəsindən maliyyə dəstəyi göstərilmişdir. Dövlət büdcəsində yerli büdcələr üçün nəzərdə tutulmuş dotasiya məbləği 7,5 milyon manat vəsait təşkil etmişdir.

Yerli özünüidarəetmə sahəsində aşkarlığın, şəffaflığın, ictimai iştirakçılığın artırılması ilə bağlı da ardıcıl tədbirlər görülmüşdür. Görülən işlər barədə əhalinin məlumatlılığının artırılması, eləcə də aktual məsələlərlə bağlı bələdiyyələrin maarifləndirilməsi məqsədilə media subyektlərinin imkanlarından geniş istifadə edilmişdir.

Belə ki, qeyd edilən dövr ərzində hazırlanmış müxtəlif tövsiyələr, bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsi üzrə keçirilmiş tədbirlər *(seminar, müşavirə, konfrans və s.)* Ədliyyə Nazirliyinin rəsmi saytında *(justice.gov.az)*, “Bələdiyyələrlə iş” informasiya sistemində *(belediyye.gov.az),* sosial şəbəkələrdə və digər saytlarda *(azertag.az, oxu.az, day.az, qafqazinfo.az, belediyye.info və s)* işıqlandırılmışdır.

Ümumilikdə media subyektlərində Ədliyyə Nazirliyinin yerli özünüidarəetmə sahəsində gördüyü işlərlə bağlı 215 məlumat dərc edilmişdir.




Bununla yanaşı, yerli səviyyədə sosial, iqtisadi, ekoloji və digər sahələrdə keçirilən tədbirlərdə, ümumilikdə yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələrin rolunun ölkə ictimaiyyətinə çatdırılması məqsədilə 2025-ci ildə Nazirliyin tövsiyəsi və metodiki köməkliyi ilə bir sıra bələdiyyələr *(Binəqədi, Badamdar, Nəsimi, Buzovna, Şüvəlan, Zirə, Mərdəkan, Şağan, Ağcabədi, Gədəbəy rayonu Slavyanka, Ağstafa rayonu Həsənsu, Masallı rayonu Kolatan, Cəlilabad və s. bələdiyyələr)* tərəfindən görülən işlər barədə broşürlər, eyni zamanda Nəsimi bələdiyyəsi tərəfindən bələdiyyələrin yaranmasının 25 illiyinə həsr olunmuş videoçarx hazırlanmışdır.

İl ərzində bələdiyyələr tərəfindən yerli əhalinin rifahının yaxşılaşdırılması, həssas əhali qruplarının sosial müdafiəsinin dəstəklənməsi naminə sosialyönümlü layihələrin icrası prioritet məsələlərdən biri olmuşdur. Bələdiyyələr tərəfindən təqdim edilmiş məlumatlardan görünür ki, respublika üzrə abadlıq işlərinə 10 milyon manata yaxın, sosial müdafiə və sosial təminatla bağlı xərclərə 1,7 milyon manatdan çox, gənclər siyasəti, təhsil və digər sosial tədbirlərlə bağlı layihələrə 500 min manata yaxın vəsait ayrılmışdır.




Korrupsiyaya qarşı mübarizə tədbirləri barədə ictimaiyyətin məlumatlılığının artırılması üçün Nazirliyin internet və sosial şəbəkə səhifələrinin, "Bələdiyyələrlə iş" informasiya sisteminin, eləcə də media subyektlərinin imkanlarından istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə bağlı maarifləndirici materialların əhali arasında geniş yayılması üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Vətəndaşları ən çox maraqlandıran mövzular üzrə Nazirliyin Mətbuat xidməti ilə birgə məlumatlandırıcı videoçarxların hazırlanmasına başlanılmışdır. "Bələdiyyə torpaqlarının əldə olunmasının xüsusiyyətləri", "Əmlak vergisinin hesablanması, ödənilməsi və bununla bağlı güzəştlər", "Əhalinin yerli özünüidarəetmədə iştirakı" mövzularında üç videoçarx ictimaiyyətə təqdim olunmuşdur.

Bələdiyyə fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə sosial media vasitələrindən də aktiv istifadə edilərək yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuralarının "facebook" səhifələrində mütəmadi məlumatlar paylaşılmışdır.

Bələdiyyə seçkiləri və birləşmə yolu ilə bələdiyyələrin yenidən formalaşmasından irəli gələrək, habelə aktuallığı nəzərə alınaraq "Bələdiyyələrlə iş" informasiya sistemindəki məlumat bazası tamamilə yenilənmişdir. Belə ki, 685 bələdiyyənin ərazisi, ünvanları, 8000-dən çox bələdiyyə üzvü və 2200-dən çox bələdiyyə qulluqçusu barədə yeni məlumatlar *(telefon nömrəsi, elektron poçt ünvanı və s.)* toplanılaraq sistemdə yerləşdirilmişdir. Bununla yanaşı, 2025-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün bələdiyyələr barədə məlumatlar da informasiya sistemində əks olunmaqdadır.

Qeyd olunur ki, məlumat bazası əhalinin istifadəsi üçün açıqdır və hər kəs "Bələdiyyələrlə iş" informasiya sisteminin rəsmi internet səhifəsinə (*belediyye.gov.az)* daxil olaraq müvafiq məlumatları əldə edə bilər.

Nazirlik tərəfindən bələdiyyələrdə rəqəmsal infrastrukturun gücləndirilməsinin təşviqi istiqamətində aparılmış işin nəticəsi olaraq respublika üzrə bələdiyyələrin internetə çıxışı tam təmin edilmişdir. Eləcə də, vətəndaşların bələdiyyələrə elektron müraciət etmə imkanlarının təmin olunması üçün elektron poçt ünvanlarının aktiv saxlanılması üzrə metodoloji iş aparılmışdır.

2025-ci ildə Ədliyyə Nazirliyi tərəfindən həmçinin müxtəlif maarifləndirmə və tədris tədbirləri təşkil olunmuş, tövsiyələr hazırlanmış, digər dövlət qurumları, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilmişdir.

Nazirlik tərəfindən diqqətdə saxlanılan məsələlərdən biri də əməkdaşların, o cümlədən bələdiyyələr üçün keçirilən təlimlərdə iştirak edən təlimçilərin hüquqi bilikləri ilə yanaşı, kommunikasiya və davranış bacarıqlarının inkişaf etdirilməsi olduğundan Bələdiyyələrlə iş baş idarəsinin əməkdaşları da "Ünsiyyət bacarıqlarının inkişafı", "Etik davranış və korrupsiyaya qarşı mübarizə", "İnsan hüquq və azadlıqlarına hörmət ədliyyə işçilərinin əsas

prioriteti kimi” və “Stressin idarə olunması” kimi mövzularda müxtəlif təlimlərə cəlb olunmuşlar.




İl ərzində bələdiyyələrin hüquqi maarifləndirilməsi məqsədilə bütövlükdə 273 maarifçilik tədbiri həyata keçirilmiş, bu tədbirlərdə 7275 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Ədliyyə Nazirliyi tərəfindən 237 seminar (5552 dinləyici), 26 onlayn tədris kursu (1318 dinləyici) təşkil olunmuşdur. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin maarifləndirilməsi üçün keçirilmiş 10 seminarda 405 bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Seminar və kurslar əsasən aşağıdakı mövzuları əhatə etmişdir:

- Yerli özünüidarəetmədə antikorrupsiya və şəffaflıq;
- Sonuncu bələdiyyə seçkilərinə əsasən formalaşmış bələdiyyələrin fəaliyyətinin təşkili məsələləri;
- Bələdiyyə qərarlarının strukturu və məzmununa dair tələblər;
- Yerli özünüidarəetmədə əhalinin iştirakı və görülmüş işlər barədə yerli əhalinin məlumatlılığının artırılması;
- Bələdiyyələrin turizm potensialı və onlardan istifadənin qanuni əsasları;
- Bələdiyyə mülkiyyəti, bələdiyyə torpaqlarının idarə edilməsi ilə bağlı yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri;
- Yerli ekoloji məsələlərlə bağlı fəaliyyətin təşkili;
- Yerli büdcənin formalaşdırılması: problemlər və onların aradan qaldırılması sahəsində bələdiyyələrin potensial imkanları;



***Bələdiyyə üzv və qulluqçularının maarifləndirilməsi ilə bağlı seminarlar***

- Azərbaycan Respublikasının Konstitusiyası yerli özünüidarəetmənin müstəqilliyinin təminatı kimi;
- Bələdiyyə qulluğuna qəbul və icra aparatının formalaşdırılması qaydaları;
- Yerli səviyyədə abadlaşdırma, tikinti və yaxşılaşdırma işlərinin təşkilində bələdiyyələrin iştirakı ilə bağlı tənzimləmənin xüsusiyyətləri və s.

Bundan əlavə, “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planında, həmçinin onun ədliyyə orqanlarında icrası üzrə İş Planında müəyyən edilmiş tapşırıqların icrası məqsədilə bələdiyyə üzv və qulluqçularına “Yerli özünüidarəetmənin həyata keçirilməsi zamanı korrupsiya ilə əlaqədar hüquqpozmaların qarşısının alınmasının və etik davranış qaydalarına riayət edilməsinin əhəmiyyəti” mövzusunda təlimlər təşkil edilmişdir. Təlimlərdə korrupsiyaya qarşı mübarizə, etik davranış qaydaları, maraqların toqquşması mövzuları tədris olunmuş, təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamından irəli gələn məsələlər barədə” metodik tövsiyə hazırlanaraq bütün bələdiyyələrə göndərilmiş və eyni mövzuda respublika üzrə fəaliyyət göstərən bələdiyyələrin nümayəndələrinin iştirakı ilə seminarlar təşkil edilmişdir. İl ərzində bununla bağlı Ədliyyə Nazirliyinin, Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının və bələdiyyələrin təşkilatçılığı ilə paytaxtda və regionlarda dəyirmi masalar, ictimai dinləmələr, maarifləndirici görüşlər və digər silsilə tədbirlər həyata keçirilmişdir.








***“Konstitusiya və Suverenlik İli” tədbirləri çərçivəsində bələdiyyə üzv və qulluqçuları ilə maarifləndirici görüşlər***

Ulu Öndərin zəngin irsinə həsr olunan bir sıra beynəlxalq və ölkə üzrə tədbirlərdə, o cümlədən Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi Beynəlxalq İnstitutunun (MDB PA DİMBİ) təşəbbüsü ilə “Heydər Əliyev – suveren Azərbaycanın konstitusionalizminin və parlamentarizminin banisi” mövzusunda keçirilmiş beynəlxalq konfransda Bələdiyyələrlə iş baş idarəsinin əməkdaşlarının iştirakı təmin edilmişdir.

Həmçinin Baş idarənin əməkdaşları Nazirliyin İnsan resursları idarəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə keçirdiyi “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: suverenliyə aparan yol” adlı mühazirələrdə də iştirak etmişlər.




***Hüquq və İnsan Haqları İnstitutu ilə birgə “Bələdiyyələrin fəaliyyətində insan hüquqları aspekti” mövzusunda təlimlər***

Sonuncu keçirilmiş seçkilər, eləcə də birləşmə nəticəsində yenidən formalaşdırılan bələdiyyələrin maarifləndirilməsi zərurətindən irəli gələrək Baş idarə və Hüquq və İnsan Haqları İnstitutu tərəfindən sentyabr–oktyabr aylarında Bakı, Gəncə, Sumqayıt, Şirvan şəhərlərində və Xaçmaz rayonunda “Bələdiyyələrin fəaliyyətində insan hüquqları aspekti” mövzusunda ardıcıl maarifləndirici təlimlər keçirilmişdir.

Təlimlərdə ölkənin müxtəlif bölgələrinin bələdiyyələrindən ümumilikdə 210 nümayəndə, o cümlədən Bakı şəhəri üzrə 44 bələdiyyə təmsil olunmuş, təlim proqramının sonunda iştirakçılara sertifikatlar təqdim olunmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hər il ənənəvi olaraq elan edilən “İnsan Hüquqları Aylığı” çərçivəsində insan hüquq və azadlıqlarının təbliği, vətəndaşların öz hüquqları barədə məlumatlılığın artırılması, insan hüquqlarının müdafiəsi sahəsində mövcud çağırışlara diqqət yetirilməsi, insan hüquqlarının müdafiəsi sahəsində ictimai məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə bələdiyyə üzv və qulluqçularına “İnsan hüquq və azadlıqlarının, əhalinin təhlükəsizliyinin təmin olunmasında bələdiyyələrin rolu” mövzusunda seminarlar keçirilmişdir.

Həmçinin məlum olduğu kimi “Uşaq hüquqları haqqında” Konvensiyanın qəbul edilməsinin ildönümü ilə əlaqədar Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən cari ilin 20 oktyabr - 20 noyabr tarixləri ölkədə “Uşaq Hüquqları Aylığı” elan edilmişdir. Bununla əlaqədar “Uşaq hüquqlarının müdafiəsində bələdiyyələrin rolu barədə” tövsiyə hazırlanaraq bələdiyyələrə göndərilmiş və müvafiq seminarlar təşkil olunmuşdur.

2025-ci ildən başlayaraq Nazirlik tərəfindən konkret məsələlərə dair tövsiyələrin verilməsi ilə yanaşı, bələdiyyə fəaliyyətində yol verilən pozuntuları, onları doğuran səbəb və şəraitin geniş təhlilini əks etdirən, elmi-praktiki mənbələrdən istifadə olunmaqla vəsaitlərin hazırlanmasına da başlanılmışdır.




Belə ki, Ədliyyə Akademiyasının və Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəy və təklifləri alınmaqla “Yerli özünüidarəetmədə şəffaflıq və antikorrupsiya” mövzusunda metodik vəsait hazırlanmışdır. Vəsaitdə korrupsiyanın mahiyyəti və yerli özünüidarəetmədə təzahür formaları, yerli özünüidarəetmə orqanlarında korrupsiyaya qarşı hüquqi və institusional mexanizmlər, korrupsiyaya qarşı mübarizədə praktiki yanaşmalar və metodlarla bağlı təhlillər və təkliflər təqdim edilmişdir.

Bu istiqamətdə aparılan işlərin davamı olaraq “Bələdiyyə üzv və qulluqçularının hüquqi statusu və ondan irəli gələn əsas tələblər” mövzusunda növbəti belə metodik vəsait hazırlanmışdır. Qeyd edilən vəsaitlə isə bələdiyyə qulluğunun təşkili və icra aparatının düzgün qurulması, əməkdaşların maarifləndirilməsi, vətəndaş qəbulu zamanı etik davranış qaydalarına riayət edilməsinin təmini məsələləri əhatə olunmuş, bununla da yerli özünüidarəetmədə vətəndaş məmnunluğunun artırılması və ictimai etimadın yüksəldilməsi kimi istiqamətlərdə müsbət irəliləyişlərə nail olunması hədəflənmişdir.

Eyni zamanda qanunvericiliyin tələblərinə əməl edilməsi ilə bağlı aşağıdakı aktual məsələləri əhatə edən metodik tövsiyələr hazırlanaraq bələdiyyələrə çatdırılmışdır:

- Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə dair qanunvericiliyin tələbləri barədə;
- Bələdiyyələrin maliyyə hesabatlarının tərtib edilməsinə dair qanunvericiliyin tələbləri barədə;
- Bələdiyyə torpaqlarının ayrılması ilə bağlı müvafiq icra hakimiyyəti orqanlarının rəylərinin alınmasına dair qanunvericiliyin tələblərinə dair;
- “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə;
- Su təsərrüfatlarının idarə edilməsində bələdiyyələrin rolu barədə;
- Çoxmənzilli binaların idarəçiliyində və saxlanılmasında bələdiyyələrin iştirakı barədə;
- Bələdiyyələr tərəfindən torpaq sahələri ayrılarkən qanunvericiliyin tələblərinin pozulması barədə;
- Bələdiyyələrin daimi və başqa komissiyalarının yaradılması və idarə edilməsi ilə bağlı qanunvericiliyin tələbləri barədə və s.

Ölkədə həyata keçirilən sosial islahatlar zəminində yerli əhalinin sosial müdafiəsi sahəsində bələdiyyələrin roluna, həmçinin cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə ciddi

zərbə vuran narkomaniya ilə mübarizə məsələlərinə diqqətin artırılması gündəmdə olmuşdur. Bununla bağlı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 2025-ci il tarixli Sərəncamından irəli gələn məsələlər barədə" tövsiyə hazırlanaraq bələdiyyələrə göndərilmişdir. Məsələnin aktuallığı nəzərə alınaraq respublika üzrə ümumilikdə 120 bələdiyyə tərəfindən əhali ilə maarifçilik tədbirləri və görüşlər keçirilmiş, 161 bələdiyyə tərəfindən məktəblərdə şagirdlərlə söhbətlər aparılmış, 11 bələdiyyə tərəfindən buklet və broşürlər hazırlanaraq əhaliyə, xüsusilə məktəblilərə və gənclərə paylanılmış, 88 bələdiyyə tərəfindən bələdiyyənin inzibati binasının qarşısında yerləşən lövhələrdə və əhalinin sıx toplaşdığı ərazilərdə təbliğat plakatları, şəkillər asılmış, 40 bələdiyyə tərəfindən isə narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində hüquq-mühafizə orqanları ilə əməkdaşlıq həyata keçirilərək həyətyanı sahələrə, xüsusilə istifadəsiz torpaq sahələrinə baxış keçirilmiş, həmçinin digər bələdiyyələr də profilaktik tədbirlərin keçirilməsində aktiv iştirak etmişlər.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş qanun pozuntularının və nöqsanların aradan qaldırılması, eləcə də təkrar törədilməsinin qarşısının alınması məqsədilə ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 6074 tövsiyə göndərilmişdir.

Ölkə üzrə fəaliyyət göstərən bələdiyyələrin birləşmə nəticəsində yenidən formalaşması nəzərə alınaraq bələdiyyələrin nizamnamələrinin Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi işinin təşkili məqsədilə Nazirliyin Strateji planlaşdırma və monitorinq, Qanunvericilik və Bələdiyyələrlə iş baş idarələrinin birgə təşkilatçılığı ilə bələdiyyə nizamnamələrinin rəsmiləşdirilməsi zamanı bələdiyyələr tərəfindən qanunvericiliyin tələblərinə əməl olunması ilə bağlı regional ədliyyə idarələrinin bələdiyyələrlə aparılan işdə iştirak edən aidiyyəti əməkdaşları üçün təlim keçirilmiş, həmçinin Qanunvericilik baş idarəsi tərəfindən hazırlanmış sənəd nümunələri regional ədliyyə idarələrinə təqdim edilmişdir.

Nəticədə il ərzində ölkə üzrə yeni yaradılmış bütün bələdiyyələrin nizamnamələrinin bələdiyyə iclaslarında təsdiq edilərək Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin edilmişdir.

Bələdiyyələrdə kargüzarlıq və arxiv işinin düzgün təşkili məqsədilə il ərzində 245 bələdiyyədə kargüzarlıq və sənədlərin arxivləşdirilməsi vəziyyəti yerində öyrənilmiş, bu sahədə mövcud pozuntuların aradan qaldırılması üçün bələdiyyələrə kömək göstərilmişdir.

Yerli özünüidarəetmənin davamlı inkişafı naminə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, aidiyyəti dövlət orqanları (qurumları), eləcə də beynəlxalq qurumlarla qarşılıqlı əməkdaşlığa Nazirlik tərəfindən xüsusi önəm verilir, mütəmadi görüşlər keçirilir, bələdiyyələrin qarşılaşdıqları çətinliklərin aradan qaldırılması və digər aktual məsələlərin həlli yolları barədə müzakirələr aparılır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müvafiq şöbəsinin dəstəyi ilə bələdiyyələrin təmsilçiliyini həyata keçirən assosiasiyaların fəaliyyətinin təkmilləşdirilməsi və fəallığının artırılması istiqamətində məqsədyönlü addımlar atılmışdır. Bu çərçivədə assosiasiyaların idarəçilik, əlaqələndirmə və hesabatlılıq bacarıqlarının artırılması məqsədi ilə müxtəlif proqram və layihələr icra olunmuş, beynəlxalq təcrübənin öyrənilməsi və mübadiləsi üçün əməkdaşlıq mexanizmlərinin formalaşdırılması istiqamətində işlər görülmüşdür.

Eyni zamanda yerli özünüidarəetmə sahəsində Azərbaycan Respublikasının Milli Məclisi ilə sıx əlaqələr davam etdirilmiş, Nazirliyin nümayəndələri, milli assosiasiyaların təmsilçiləri, bələdiyyələr aidiyyəti komitələrin iclaslarında iştirak edərək müvafiq normativ hüquqi aktların layihələrinin müzakirəsinə qatılmış, rəy və təkliflərini bildirmişlər.






***Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzənin (2024-cü il üzrə) Azərbaycan Respublikası Milli Məclisinin iclasında dinlənilməsi, 14.02.2025-ci il)***

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı Nazirliyin 2024-cü il üzrə illik məruzəsinin Milli Məclisdə müzakirəsi zamanı yerli özünüidarəetmə fəaliyyətinin təhlili ilə bağlı deputatlar tərəfindən səsləndirilən təkliflər fəaliyyətdə nəzərə alınmış, həmin məsələlərlə bağlı bələdiyyələrə müvafiq məlumatların təqdim olunmasına dair məktublar göndərilmiş və ümumiləşdirilmələr aparılmışdır.

Bununla yanaşı il ərzində bələdiyyə assosiasiyaları ilə əməkdaşlıq münasibətləri genişləndirilmiş, yerli demokratiyanın inkişafının yeni mərhələsi barədə müzakirələr aparılmış, bələdiyyələrlə metodiki işin təşkili və qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə görülən işlərdə onların da rəy və təklifləri nəzərə alınmışdır.

Bələdiyyələrlə işin səmərəliliyinin artırılması və faydalı əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsi məqsədilə Bələdiyyələrlə iş baş idarəsinin rəhbərliyi də ötən ilin noyabr ayında keçirilmiş Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının Ümumi Yığıncaqlarında iştirak etmişdir. Tədbirlərdə assosiasiyaların ümumi hesabatları və təşkilati məsələlər yanaşı, Ədliyyə Nazirliyi və digər qurumlarla birlikdə həyata keçirilən sistemli tədbirlər, bələdiyyələrin iqtisadi potensialının artırılması üzrə görülən işlər və qarşıda duran vəzifələr barədə müzakirələr aparılmışdır. Həmçinin yerli










***Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının Ümumi Yığıncaqları, noyabr 2025-ci il***

özünüidarəetmə sisteminin inkişaf etdirilməsi üçün Ədliyyə Nazirliyi tərəfindən müəyyən edilən hədəflər və bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verilmişdir.



***"Ailə və icma məsələlərində yerli özünüidarəetmənin təsir mexanizmləri" mövzusunda konfrans, 23.04.2025***

23 aprel tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təşkil edilmiş "Ailə və icma məsələlərində yerli özünüidarəetmənin təsir mexanizmləri" adlı konfransda Ədliyyə Nazirliyinin səlahiyyətli nümayəndələri də iştirak etmişlər.

14 may tarixində isə Bələdiyyələrlə iş baş idarəsinin Azərbaycan Dövlət İqtisad Universiteti ilə əməkdaşlıq imkanları ilə bağlı görüş keçirilmişdir. Görüş çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə yanaşı, onlara hüquqi maarifləndirmə və metodoloji köməklik göstərilməsi istiqamətində fəaliyyəti barədə ətraflı məlumat verilmiş, gələcək qarşılıqlı faydalı əməkdaşlığın mümkün imkanları müzakirə edilmişdir.

Eyni zamanda qarşılıqlı əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi və texniki məsələlərin detallı koordinasiyası üçün 23 may tarixində Azərbaycan Qiymətləndiricilər Palatasının sədri və müavinləri ilə Bələdiyyələrlə iş baş idarəsində görüş keçirilmişdir. Görüşdə Palata tərəfindən irəli sürülən bir sıra təkliflər müzakirə edilmişdir.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planının aidiyyəti bəndlərindən irəli gələn tapşırıqlar nəzərə alınaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə əməkdaşlıq davam etdirilmişdir. 30 may tarixində Xidmətlə Bələdiyyələrlə iş baş idarəsi arasında bələdiyyə torpaqlarının mülkiyyətə, istifadəyə və icarəyə verilməsi prosesində yaranan çətinliklər və onların həlli yollarının müzakirəsi üçün növbəti görüş baş tutmuşdur. Görüşdə Baş idarə tərəfindən hazırda bələdiyyələrin torpaq münasibətlərində

qarşılaşdığı, o cümlədən müvafiq rəylərin alınması sahəsindəki problemlər barədə qarşı tərəf məlumatlandırılmış, onların qanunvericilik müstəvisində həllinin məqsədəmüvafiqliyi müzakirə edilmişdir.

"Bələdiyyə torpaqlarının ayrılması istiqamətində qarşılıqlı fəaliyyətin təmini ilə əlaqədar məsələlər" mövzusunda növbəti belə görüş 23 dekabr tarixində Xidmətin inzibati binasında keçirilmişdir. Görüşdə həmçinin Azərbaycan Qiymətləndiricilər Palatasının, Bələdiyyələrin Onlayn Xidmət Mərkəzinin nümayəndələri, bələdiyyə sədrləri də iştirak etmişdir. Tədbirdə "Bələdiyyə torpaqlarının mülkiyyətə, istifadəyə və icarəyə verilməsi barədə rəyin alınması" elektron xidməti (e-tekuis.emlak.gov.az) təqdim edilmiş, satışa çıxarılan torpaq sahələrinin qiymətləndirilməsi ilə bağlı yaranan problemlər, bu sahədə meyarların, güzəştlərin və metodologiyanın müəyyən edilməsi, birləşən bələdiyyələrin, eləcə də kəndətrafı örüş yerlərinin xəritələrinin hazırlanması barədə müzakirələr aparılmış, həll mexanizmləri təklif olunmuşdur. Eyni zamanda üzərində fərdi yaşayış evi tikilmiş torpaqlara dair hüquqların rəsmiləşdirilməsi ilə bağlı layihələrin hazırlanması dair konkret təkliflər səsləndirilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən birgə icra edilən "Kənd yerlərində kənd təsərrüfatı istehsal kooperativlərinin yaradılması və inkişafına dəstək" layihəsinin yekun mərhələsində əldə edilmiş nəticələrin müzakirəsi, beynəlxalq təcrübənin paylaşılması və "Azərbaycanda kənd təsərrüfatı kooperativlərinin inkişafı üzrə Fəaliyyət Planı"nın hazırlanması məqsədilə 20-22 oktyabr tarixlərində Bakı şəhərində keçirilmiş tədbirdə Ədliyyə Nazirliyinin nümayəndəsi iştirak etmişdir. Tədbirdə dövlət qurumlarının, beynəlxalq tərəfdaşların, aidiyyəti nümayəndələrin və kooperativ rəhbərlərinin iştirakı ilə müzakirə sessiyaları keçirilmişdir.

İl ərzində xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyaları arasında səmərəli təcrübə mübadiləsi aparılmışdır:

- 7-9 aprel tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilmiş 14-cü İllik İnvestisiya Toplantısında (Annual İnvestment Meeting – AİM) Nərimanov bələdiyyəsinin nümayəndəsi iştirak etmişdir;
- 26 aprel tarixində Türkiyə Respublikasının İstanbul şəhərində Türk Dünyası Bələdiyyələr Birliyinin (TDBB) 7-ci Ümumi Yığıncağında Azərbaycan bələdiyyələrinin geniş tərkibli nümayəndə heyəti (*12 nəfər*), eləcə də İdarə Heyətinin müxtəlif dövrlərdə *(iyul, oktyabr aylarında)* Kocaeli və Konya şəhərlərində keçirilən iclaslarında Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının nümayəndələri çıxış etmişlər;
- 2-4 sentyabr tarixlərində Türkiyənin Ərzurum şəhərində keçirilmiş 6-cı Beynəlxalq Kənd Təsərrüfatı Yerli İdarəetmə Konqresi çərçivəsində Azərbaycan Bələdiyyələrinin Milli Assosiasiyalarının əməkdaşlarının da iştirak etdiyi tədbirlərdə kənd təsərrüfatının inkişafında şəhərlərin potensialının artırılması, bu sahədə yerli özünüidarəetmə orqanlarının rolunun gücləndirilməsi, iqlim dəyişmələri və rəqəmsallaşma istiqamətində beynəlxalq əməkdaşlıq imkanları müzakirə olunmuşdur;
- "Avropada yerli özünüidarənin təşviqinin dörd onilliyi: Avropa Xartiyasının 40 ili" mövzusuna həsr olunan Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 28-30 oktyabr tarixlərində keçirilən 49-cu sessiyasında iştirak üçün Azərbaycan nümayəndə heyəti Strasburq şəhərində səfərdə olmuşdur;

- 4 dekabr tarixində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TURKPA) Türk Dünyası Bələdiyyələr Birliyi ilə birgə İstanbul şəhərində təşkil etdiyi "Yerli İdarəetmə və Sərhədyanı Əməkdaşlıq" mövzusunda seminarda Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının nümayəndələri iştirak etmişdir;
- 4-6 dekabr tarixlərində Türkiyə Respublikası Ədalət və İnkişaf Partiyasının (AK Partiyası) Qadınlar Komissiyasının sədrinin dəvəti ilə ölkə bələdiyyələrini təmsil edən qadın bələdiyyə sədrləri Türkiyənin İstanbul şəhərində keçirilmiş "Yerli İdarəetmədə Qadınlar Zirvəsi" Beynəlxalq Sammit çərçivəsində planlaşdırılmış bütün tədbirlərdə fəal iştirak edərək panel müzakirələrdə çıxış etmişlər.




***"Yerli İdarəetmədə Qadınlar Zirvəsi" Beynəlxalq Sammit, 04-06.12.2025***

Ümumilikdə 2025-ci il ərzində həyata keçirilən tədbirlər yerli özünüidarəetmə fəaliyyətinin rəqəmsallaşdırılmasına, bələdiyyə idarəçiliyinin təkmilləşdirilməsinə, bununla da idarəetmə keyfiyyətinin yüksəldilməsinə, cəmiyyətdə bələdiyyə institutuna etimadın artırılmasına xidmət etmişdir.

Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin yeni çağırışlara uyğun təşkilinə kömək və metodoloji yardım göstərilməsi, inzibati nəzarətin səmərəliliyinin artırılması istiqamətində tədbirlər davam etdirilir.

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**